# YAŞAR QARAYEV:
# yaxından və uzaqdan

**XX əsr bizdən uzaqlaşdıqca bu mürəkkəb və ziddiyyətli epoxada yetişən, milli-mənəvi tərəqqidə yeri və sanbalı olan şəxsiyyətləri dəyərləndirməyin meyarları bəzi məqamlarda subyektiv müdaxilə ilə müşayiət olunan süni şişirtmə, yersiz və əsassız, ironiya doğuran mübaliğəli qiymətlərlə "zəngin" olsa da, həqiqi elmin və onun təmsilçilərinin yeri daha çox görünməkdədir. Xüsusən, humanitar fikrin son iyirmi ildə yenidən qurulma uğrunda təşəbbüsləri çox hallarda "şüardan", populist mülahizələrdən uzağa getmədiyi elmi mühitdə Yaşar Qarayev kimi nadir istedada malik mütəfəkkir alimin elm və əxlaq dərslərinə qayıtmaq, öyrənmək, bu sərvətin ənənələrini qorumaq zərurətə çevrilir.**



Yaşar müəllim XX əsr Azərbaycan tənqidi, ədəbiyyatşünaslığı və estetik fikrini, daha dəqiq desək humanitar düşüncəsini yeni istiqamətə yönəltdi, yeni mərhələnin əsasını qoydu və bu mərhələni özü və çoxsaylı yetirmələri tarixi reallığa çevirdilər. Milli ictimai fikrimizdə, elmi vicdan və əxlaqımızda, yüksək ziyalı ünsiyyətində bənzərsiz intellekti ilə dərhal seçilən Yaşar Qarayev fenomeni hələ uzun illər öyrəniləcək, adı özünə layiq əbədiləşdiriləcəkdir.

Onu "ədəbiyyat filosofu", "tənqidimizin şairi", "elmimizin möcüzəsi" kimi epitetlərlə qiymətləndirənlər yanılmırlar. Yaşar Qarayevin zəngin irsini öyrənən hər bir tədqiqatçı, ədəbiyyat və sənət adamı daha dərinə getdikcə ona məxsus qeyri-adi məqamlarla çox rastlaşacaqlar.

Öz erudisiyası, elmi fəhmi, nadir təhlil üsulu ilə seçilən, respublikada humanitar fikrə istiqamət verən bir alim və ictimai xadim kimi Yaşar müəllim təvazökarlıq mücəssəməsi idi. XX əsrin ikinci yarısı, başqa sözlə yarım əsrdən artıq bir vaxtda humanitar fikrin elmi-metodoloji sərhədlərini müəyyən edən Yaşar Qarayevin ilk və həyatdan vidalaşdığı rəsmi ünvanı keçmiş Vaqif küçəsindəki 29 kvadratmetrlik mənzil oldu. Onun əbədi ünvanı isə Azərbaycanda yaratdığı elm, əxlaq və saflıq məktəbidir.

Yaşar Qarayev imzası humanitar fikrimizin əsas istiqamətlərini əhatə edir. Ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və nəhayət humanitar elmlərin nəzəri-metodoloji problemləri.

Yaşar Qarayev ədəbiyyat, sənət, elm aləminə 50-ci illərin sonu, ictimai-siyasi mühitin mülayimləşdiyi bir zamanda qədəm qoymuşdu. 1953-1958-ci illər universitetin filologiya fakültəsində təhsil aldığı qrup Azərbaycan elminə, ədəbiyyatına Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, Ağacavad Əlizadə, Şamil Salmanov, Arif Səfiyev, Əbülfəz İbadoğlu, Həmid Abbas, İbrahim Göyçaylı, Teyyub Qurban, Firidun Ağayev, Cəfər Cəfərov, Vaqif Hüseynov kimi adlar bəxş etmişdi.

Yaşar Qarayev universitet auditoriyasından Akademiyaya artıq püxtələşmiş bir tənqidçi kimi gəlmişdi. Onun ilk məqalələri Azərbaycan dramaturgiyasının tarixi və müasir problemlərinə həsr olunmuşdu. Ədəbi prosesə Yaşar Qarayev 60-cı illərdə teatr tənqidçisi kimi daxil olur və onun Azərbaycan milli teatrının ən görkəmli tamaşaları haqqında dövri mətbuatda məqalələri dərc olunur.

Yaşar Qarayev Azərbaycanda XX əsrin ən görkəmli teatr tənqidçisi və dramaturgiya mütəxəssisidir. O, dramaturgiya və teatr nəzəriyyəsini mükəmməl bilirdi və "Azərbaycan ədəbiyyatında faciə janrı" monoqrafiyası yeni tipli tədqiqat idi. Bu monoqrafiya bizim elmi fikrimizə faciə haqqında mövcud nəzəri konsepsiyaları gətirdi, bu janrın yaranmasını şərtləndirən ictimai, fəlsəfi və ədəbi-bədii amillər, həmçinin faciənin quruluşu və tipologiyası araşdırıldı. Azərbaycan teatrı və dramaturgiyasının məktəblər statusunda formalaşması, varis-irs əlaqələri Y.Qarayevin teatr və dramaturgiya haqqındakı məqalələrində reallaşdırılan konsepsiya idi.

1960-70-ci illər milli dram teatrımızın səhnəsində oynanılan hər bir əsər haqqında Yaşar Qarayevin rəyi ictimaiyyətin diqqət mərkəzində idi. M.F.Axundovun, Mirzə Cəlilin, Ə.Haqverdiyevin, H.Cavidin, S.Vurğunun, İlyas Əfəndiyevin, Sabit Rəhmanın əsərlərinin teatr təcəssümü barədə Y.Qarayevin məqalələrinə diqqətlə nəzər yetirdikdə daxili bir bütövlük görürük. Azərbaycan teatrı və dramaturgiyasının məktəblər kimi formalaşması, varis-irs əlaqələri bu məqalələrin ümumi konsepsiyasını təşkil edir. O, 60-cı illərdə teatrın müasir problemləri ilə yanaşı, teatr tarixi ilə də ardıcıl məşğul idi. Cəfər Cəfərovun "Azərbaycan teatrı" əsərinin nəşrə hazırlanmasına yaradıcılığının düz bir ilini sərf etmişdi və əsərin son fəslini də özü yazmışdı.

Bu gün Azərbaycan teatrının tarixi ilə məşğul olanlar üçün Yaşar müəllimin 60-cı illərdə yazdığı məqalələr, "Faciə və qəhrəman", "Səhnəmiz və müasirlərimiz" kitabları mötəbər elmi mənbədir. "M.F.Axundov teatrı", "H.Cavid teatrı", "İlyas Əfəndiyev teatrı" anlamlarını şərtləndirən bədii-estetik amillər məhz Y.Qarayev tərəfindən tədqiq olunmuşdur. Tənqidçi "İlyas Əfəndiyev teatrı"nı yeni rejissor, aktyor, rəssam və bəstəkar nəsli yetirən, onları birləşdirən və bir bədii-estetik hadisə kimi meydana çıxaran hadisə kimi ortaya qoyur. İndi cəsarətlə demək olar ki, İlyas Əfəndiyevin, ədəbiyyatımıza, sənətimizə gətirdiyi yeni ab-hava ilə tamaşaçı arasında körpü yaratmaqda, bu sənətin yeniliyini, poetik incəliyini vaxtında görüb qiymətləndirməkdə Yaşar müəllimin bir teatr tənqidçisi kimi xidmətləri böyükdür.




Yaşar Qarayevin XX əsr ədəbiyyatşünaslığında böyük xidməti onun nəzəriyyə sahəsindəki araşdırmaları, xüsusən yaradıcılıq metodu kateqoriyasının tədqiqindəki fundamental əsərləridir. Yaşar müəllimin bədii metod sahəsindəki araşdırmaları yeni dövr ədəbiyyatımızı şərtləndirən ictimai, bədii-fəlsəfi amillər fonunda aparılır, bir növ XIX-XX əsrlər ədəbiyyatı universal bir kateqoriyanın tarixi inkişaf prosesi fonunda təhlil edilir. Realizmin daxili tipologiyası və tarixi təkamül prosesi, bir metoddan digərinə keçidin bədii materialda reallaşması onun ədəbiyyat tarixini ədəbiyyatın nəzəri tarixi kimi öyrənməyin başlanğıcına çevrilirdi. Realizmin hər tipində dünya və şəxsiyyət konsepsiyasının fərdiliyini izah edərkən Yaşar müəllimin heyrətamiz təhlil üslubu onun opponentlərinə yer qoymurdu.

Yaşar Qarayev təhlil etdiyi ədəbi hadisə və janrları tarixi təkamüldə götürürdü. Tənqidçi, ədəbiyyatşünas, teatrşünas, estetik kimi təfəkkür tipi ona müxtəlif epoxalar və dövrlər, ayrı-ayrı ədəbi məktəb və metodlar, regional, milli, fərdi üslublar arasındakı tipoloji qanunauyğunluqların, fərqlərin dürüstləşdirilməsinə imkan verir. Onun müasir ədəbi-elmi təfəkkür tipi tarixi-ədəbi faktları yeni dövrün elmi mübahisələr predmetinə çevirirdi.

60-cı illərin ikinci yarısında keçmiş SSRİ məkanında yaradıcılıq metodlarının tarixi və nəzəriyyəsi gündəmə gəldi. 1972-ci ildə Bakıda "Sovet xalqları ədəbiyyatında realizm" mövzusunda ümumittifaq müşavirəsi keçirildi. Bu illərdə Yaşar müəllim yaradıcılıq metodu sahəsində ardıcıl tədqiqat aparmağa başladı. O bu dəfə ədəbiyyat tariximizin, ədəbi-estetik düşüncənin təkamülünü yaradıcılıq metodu kateqoriyasının fonunda tədqiq etdi və nəzəri-estetik fikirdə ədəbiyyat tarixinə yanaşmada mövcud sosioloji təhlil ənənələrini kənara qoydu. "Realizm: sənət və həqiqət" monoqrafiyasının nəşrinə qədər onun mətbuatda dərc edilmiş "Mirzə Cəlilin Novruzəlisi", "Klassik poeziya və intibah problemi", "Realizmin sərhədlərini realistcəsinə müəyyənləşdirməli" və s. məqalələri ədəbiyyatşünaslığımızın yeni nəzəri-metodoloji səviyyəsindən xəbər verirdi.

"Realizm: sənət və həqiqət əsəri" XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin ən sanballı nümunələrindən biridir. Bu əsər Azərbaycan ədəbiyyatşünaslığında yeni bir mərhələni müəyyən etməklə sübut etdi ki, bədii metodun bütöv estetik kateqoriya kimi hərtərəfli nəzəri şərhi regional və milli bədii düşüncənin nailiyyətlərini vəhdətdə, qarşılıqlı əlaqədə götürməyi tələb edir.

Bu əsərə qədərki realizm tədqiqləri milli realizmin daxili zənginliyini, onun inkişaf qanunauyğunluqlarını bütün dolğunluğu ilə açmağa imkan vermirdi. Azərbaycan realizminin tarixini tənqidi realizmlə məhdudlaşdıran konsepsiyalar onun milli bədii fikrin tarixinə gətirdiyi yeniliyin miqyas və ölçülərini, klassiklərimizin milli fikrimizdəki xidmətlərinin tarixilik prinsipləri əsasında qiymətləndirilməsinə mane olurdu.

Azərbaycan realizmi konkret tarixi-estetik kateqoriya, yaradıcılıq metodu kimi ilk dəfə bu əsərdə xüsusi tədqiqat hədəfi seçilir. Realizmi bir metod kimi təsnif etməyin ideya-estetik tərəflərini paralel şərh edən Yaşar Qarayev həm də bunun elmi fikirdə metodoloji əhəmiyyətini ayrıca qeyd edir. Müəllif sübut edir ki, Azərbaycan realizmini vahid tipli realizm kimi şərh edən elmi fikir metodoloji cəhətdən səhvdir və bu ədəbiyyatı öyrənməkdə ciddi qüsurların meydana çıxmasına şərait yaradır. Erkən realizm istilahını qəbul etməklə tədqiqatçı Azərbaycan realizmini üç mərhələyə ayırır. Monoqrafiyada milli realizm haqqında irəli sürülən konsepsiyanı fərdiləşdirən, milli ədəbiyyatşünaslığımızdakı realizm tədqiqatlarından ayıran mühüm cəhət onun Şərq fəlsəfəsi və bədii fikrinin spesifik qanunauyğunluqları zəminində meydana gəlməsidir.

"Azərbaycan realizminin mərhələləri" monoqrafiyasının əsas konsepsiyasının nəzəri əsasları bir də ona görə güclüdür ki, müəllif realizmin daxili tipologiyasını, onun tiplərinin növbələşməsini hazırlayan ideya-fəlsəfi qaynaqları dərindən bilir və ictimai-siyasi hadisələrlə yaradıcılıq problemləri arasındakı əlaqənin qanunauyğunluqlarını məharətlə üzə çıxardı.

Yaşar Qarayev sübut edir ki, Azərbaycan realizminin tipləri ideya və poetik cəhətdən fərdilik qazandığı kimi dünya ədəbiyyatının uyğun tiplərindən də fərqlənir. Y.Qarayevin konsepsiyası bir də ona görə bütövlük qazanır ki, o, Azərbaycan realizminin dünya ədəbiyyatında realizmin inkişaf qanunauyğunluqları ilə əlaqəsini aydınlaşdırır, bu realizmi rus və Avropa realist sənəti kontekstində təhlil edir.

Y.Qarayev klassik yazılı ədəbiyyatın aşağıdakı inkişaf sxemini irəli sürür: Orta əsrlər romantik ədəbiyyatı, XVIII əsrin erkən realizmi, XIX əsr maarifçi realizmi, tənqidi realizm, XX əsrin yeni romantizmi. O, realizm konsepsiyasında Azərbaycan bədii fikrinin belə spesifik inkişaf qanunauyğunluğunu geniş nəzərə alır və həmin elmi məntiqlə milli realizmin ideya və poetika özünəməxsusluğunu üzə çıxarır. Bu əsərin digər nəzəri-metodoloji əhəmiyyəti ondan ibarətdir ki, müəllif realizmlə yanaşı milli romantizmin ilk inkişaf sxemini irəli sürür: intibah romantizmi və maarifçiliyin doğurduğu XX əsr romantizmi.

"Realizm: sənət və həqiqət" əsərində romantik poetika və problematikanın maarifçiliyin şərtləndirdiyi bədii metodlara qədər davamı göstərilir. Bu tezis Azərbaycanda realizm və XX əsr romantizminin genezisi baxımından klassik poeziya ilə daxili struktur, poetika əlaqələrinin geniş, hərtərəfli tədqiqi zəruriliyini şərtləndirir.

Monoqrafiyada Azərbaycanda maarifçilik hərəkatının doğurduğu realist metodun nəzəri şərhinə geniş yer verilmişdir. Müəllif M.F.Axundovun adı ilə bağlı maarifçi ictimai-fəlsəfi fikrin yüksək mərhələsinin cəbbəxanasını milli ictimai fikrin özündə görür. A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh bu mərhələnin sələfləri olan maarifçilər kimi tədqiqata cəlb olunurlar. Nəticədə maarifçi realist kimi M.F.Axundovun böyüklüyü tənqidi realizmlə müqayisədə kiçilmir, əksinə maarifçiliyi kamil bir mərhələyə qaldırdığı sübut olunur. Y.Qarayev öz opponentləri ilə mübahisə edərək yazır: "hansı yaxşıdır: M.F.Axundovun süni şəkildə "tənqidi realist" elan edib, klassik tənqidi realizm nümunələri ilə (Qoqol, Tolstoy, Dostoyevski, Balzak) müqayisəsində onun "məhdudluğundan" bəhs açmaq, yoxsa həmin realizmə öz adını vermək və klassik maarifçi realizmin timsalında kəsb etdiyi üstün xüsusiyyətlərdən bəhs açmaq? Kamil "maarifçi realizm", yoxsa süni və məhdud "tənqidi realizm?".

Milli-ideoloji hərəkat kimi maarifçiliyin maarifçi realizmi şərtləndirməsi əsərdə, əsasən, M.F.Axundovun bədii və fəlsəfi irsi, ictimai-siyasi fəaliyyətinin təhlili əsasında reallaşdırılır. M.F.Axundovun realist bədii metodunun tipini müəyyənləşdirərkən tədqiqatçı mövcud elmi qənaətləri diqqətlə, yüksək elmi mədəniyyətlə təhlil edir və özünəqədərki müəlliflərin nailiyyətləri əsasında sistemli, bütöv konsepsiya irəli sürür.

Y.Qarayev maarifçi realizm mərhələsini təkcə maarifçi dünyagörüşün mexaniki nəticəsi kimi xarakterizə etmir. O, bədii faktların sistemli təhlili ilə bu ədəbiyyatın poetik strukturunun məhz maarifçi realizmin poetikasına uyğun gəldiyini sübut edir. Milli üslubun və realist poetikanın xüsusiyyyətlərini "Təmsilat", "Aldanmış kəvakib" və eləcə də "Kəmalüddövlə" faktları əsasında tədqiq edən müəllif maarifçiliyin milli ədəbiyyatın poetik strukturuna gətirdiyi yenilikləri ön plana çəkməklə Axundov yaradıcılığındakı ədəbi, elmi üslub çalarını onun "ictimai həyatın tərəqqisi uğrunda mübarizəsinin formaları" kimi ifadə edir.

Y.Qarayev Azərbaycan maarifçiliyinin 1950-60 və 1980-90-cı illərini keyfiyyətcə fərqlənən mərhələlər kimi təhlil edir. Tədqiqatçı Azərbaycan maarifçiliyinin Şərqlə, eyni zamanda həm Şərq və Qərblə bağlı ilk dövrlərini təhlil etməklə yanaşı, proletariatın sinfi mübarizəsi və kəndli hərəkatı dövrünün maarifçiliyi haqqında, onun XX əsr maarifçi realizm və romantizm ədəbiyyatında davamını izləməklə maarifçilik haqqında konsepsiyanın bütövlüyünü reallaşdırır və XX əsr ədəbiyyatının poetikasında onun yerini düzgün müəyyənləşdirir.

Monoqrafiyada, həm də klassik romantizmlə XX əsr romantizminin daxili bağlılığı və milli romantizmin iki mərhələsi kimi onların fərqli tərəflərinin estetik prinsiplərinin müəyyən tərəfləri müəyyənləşdirilir.

Əsərdə XX əsr realizminin tipoloji keyfiyyətlərinin şərhinə keçməzdən qabaq müəllif realizm haqqında müasir nəzəri konsepsiyaları müasir nəzəri-estetik fikrin işığında saf-çürük edir, ədəbiyyatşünaslığımızda istilahın hərfi mənası ilə çıxış edən mülahizələri rədd edərək yazır: "Tənqidi realizmdə "tənqidçilik" keyfiyyətlərinin digər spesifik cəhəti isə odur ki, o, əvvələn kəmiyyətə (ayrı-ayrı qüsurlara) qarşı çevrilmir, keyfiyyətə (ayrı-ayrı qüsurları doğuran vahid mahiyyətə, ictimai əsasın özünə) qarşı çevrilir".

Y.Qarayev XX əsr tənqidi realizmini ideya-estetik problematikasına görə maarifçi realizmdən fərqlənən, milli realizmin yeni tipi və inkişaf mərhələsi kimi zəngin faktlarla əsaslandıra bilir. Müəllif XX əsr tənqidi realizminin əsaslandığı ənənələri bu realizmin klassik romantik poeziya, maarifçi realizm və XX əsr romantizmi ilə ideya və poetika əlaqələrini C.Məmmədquluzadə, Sabir yaradıcılığının fonunda üzə çıxarır. Tədqiqatçı haqlı olaraq metod tipləri arasında poetik-struktur uçurum görmür. Əksinə bədii metod keçidləri ideya-fəlsəfi və bədii quruluşu etibarı ilə məntiqi şəkildə götürülür. Nəticədə realizmin inkişaf yolunu öyrənməklə müəllif, həm də, milli bədii və ictimai fikrin inkişaf qanunauyğunluqlarını izləmiş olur.

Metod tipləri arasındakı (xüsusən realizm və romantizm) "ziddiyyətlərdə", həm də müəyyən doğmalıq, məntiqi bağlılıq tapmaq yaradıcılıq metodu haqqında bizim milli nəzəri təlimin mühüm nailiyyətidir. Bu elmi zəmində ciddi axtarışlar aparan Y.Qarayev milli realizmi hazırlayan klassik romantik poeziya ilə onun poetik əlaqələri, həmçinin XX əsr romantizminin estetikasına tənqidi realizmin təsirini konkret təhlillərlə reallaşdırır.

Milli poeziyanın inkişafında Füzulinin iştirakı realizmin poetikasında romantik poetikanın iştirakı və rolu şəklində əyaniləşdirilir.

Realist və romantik ədəbiyyatlar arasında janr baxımından irs-varis problemi Füzuli lirikası ilə Sabir satirası janrın tipoloji fərqləri və strukturunun eyniyyəti məqamlarının tədqiqində üzə çıxarılır. "Ümumilik burada məhz formal sxemdə, qrammatik və semantik kompleksdə, fərq metodda meydana çıxır".

Monoqrafiyada Füzuli ənənələri və tənqidi realizmin poetikası, maarifçi realist ədəbiyyatın janr, üslub problemləri, klassik romantizm, onun qnoseologiyası, müəyyən inkişaf mərhələlərinin əlamətləri kimi irəli sürülən estetik komponentlər milli ədəbiyyatın tarixi poetikası haqqında düşünməyin təşəbbüsləri kimi ciddi maraq doğurur.

"Realizm: sənət və həqiqət" əsəri, eləcə də Y.Qarayevin yaradıcılıq metodu ilə bağlı digər tədqiqatları XX əsr Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji nailiyyəti kimi bu gün də eyni elmi təravətdə qalmaqdadır.

Y.Qarayevin bədii metod haqqında tədqiqatlarının müasir elmi-praktik əhəmiyyəti ondadır ki, o, yaradıcılıq metodu konsepsiyasını əsaslandırarkən böyük klassiklərimizin irsini tarixi təkamüldə götürür. Əslində yaradıcılıq metodlarının poetikası tarixi təkamül prosesində öyrənilir. O, haqlı olaraq metod tipləri arasında poetik-struktur uçurum görmür. Əslində bədii metod keçidləri ideya-fəlsəfi və bədii quruluş etibarı ilə məntiqi şəkildə götürülür. Nəticədə realizmin inkişaf yolunu öyrənməklə müəllif, həm də, milli bədii və ictimai fikrin inkişaf qanunauyğunluqlarını izləmiş olur.

Y.Qarayev 60-cı illərdə teatr tənqidçisi kimi etiraf və təsdiq olunursa, 70-ci illərdə ədəbi tənqidin və ümumilikdə ədəbi prosesin səlahiyyətli söz sahibi kimi çıxış edir. Onun 1976-cı ildə yaratdığı "Ədəbi proses" qrupu, sonra şöbə kimi fəaliyyət göstərdiyi müddətdə cari ədəbiyyat haqqında ən sanballı müşavirə, müzakirə və nəşrlər meydana çıxardı və ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. "Ədəbi proses" silsiləsindən nəşr edilmiş kitablar müəyyən sosioloji vərdişlərinə baxmayaraq o illərin ədəbi prosesi haqqında ən mötəbər elmi söz və mənbədir.

Tənqid tariximizi ardıcıl tədqiq etmiş, ədəbiyyatşünaslığımızın və tənqidimizin nəzəri-metodoloji inkişaf mərhələlərini dərindən öyrənib, onun ümumi problemləri ilə yanaşı böyük simaları haqqında monoqrafiya və ya portret məqalələr yazmış Yaşar Qarayevdə parlaq tənqidçilik istedadı var idi. Onun estetik zövqü, ədəbi faktı, nümunəni bədii fikir tarixi fonunda qiymətləndirmək istedadı ancaq heyrət doğurur. Ədəbiyyatımızın elə sanballı nümunəsi yoxdur ki, Yaşar Qarayevin diqqətindən kənarda qalsın. Onun tənqidçi-estetik tipi adətən ideoloq tipinə üstün gəlirdi. Milli mənəviyyat tarixinə yanaşmada tarixin vətəndaşlıq tutumu, onun müasir siyasi-ictimai mənası Yaşar müəllim üçün həmişə önəmli idi. O, 90-cı illərdə ədəbi-bədii dəyərlərimizi siyasi müstəqilliyin kontekstində götürürdü və metodoloji imkanları çərçivəsində ümumiləşdirmələr aparırdı. Yaşar müəllim milli tərəqqini ənənənin davamı və inkişafında görürdü.

Yaşar müəllim 90-cı illərdə ədəbiyyatşünaslığımızda iki məsələni xüsusi qabartdı. Bunu həm nəzəri-metodoloji baxımdan, həm də praktik cəhətdən həyata keçirdi. Uzun illər yasaq edilmiş ortaq türk, müsəlman mənəvi dəyərlərini və mühacirət ədəbiyyatını ədəbi-ictimai dövriyyəyə gətirməkdə onun bir alim, elm təşkilatçısı kimi müstəsna xidmətləri vardır. "Dədə Qorqud - 1300", Füzulinin 500 illik yubiley tədbirləri, mühacirət ədəbiyyatı simpoziumu çərçivəsində onun fəaliyyəti həm ədəbi-elmi fikrimizi zənginləşdirməyə xidmət etdi, həm də müstəqil Azərbaycanı dünyada tanıtmağın, sevdirməyin vasitəsinə çevrilirdi. Yaşar müəllim "Tarix: yaxından və uzaqdan" kitabında mövcud tədqiqatlarını yeni metodoloji axtarışlar kontekstində birləşdirir. Ortaq İslam və türk dəyərləri, onların şərtləndirdiyi bədii-estetik amillər fonunda ədəbiyyat tarixinə nəzər salır.

Yaşar müəllim milli müstəqillik illərində və bu ərəfədə humanitar fikrin həll etməli problemlərini dövriyyəyə gətirdi. "Azərbaycan mühacirət ədəbiyyatı" simpoziumunun təşkili, onun milli maraqlarımız axarında keçirilməsi üçün Yaşar müəllimin müdrik elmi siyasəti və fəaliyyəti indi də öz tarixi əhəmiyyətini saxlamaqdadır.

* * *

2005-ci ilin iyun ayında Dünya Ədəbiyyatı İnstitutunda Yaşar müəllimi xatırladıq və bu böyük alimin xatirəsinə ən böyük ehtiram olaraq onun əsərlərinin nəşri və tərcüməsi ilə professional məşğul olmaq və bu ideyanı reallaşdırmaq üçün müəyyən layihə hazırladıq.

Redaksiya heyətinin üzvü olduğum "Akademiçeskie tetradi" jurnalında "dəyirmi masa"da iştirak etdim və Yaşar müəllimin 70 illiyini qeyd edəcəyimizi bildirdim.

2015-ci ildə mənə doğma olan Rusiya Elmlər Akademiyasının M.Qorki adına Ədəbiyyat İnstitutunda Akademik Yuri Borevin 90 illik yubileyində iştirak etdim. Borevlə hər söhbətimizi Yaşar müəllim haqqında başlayır, onun vaxtsız vəfatını ədəbiyyatşünaslıq elmimiz üçün böyük itki olduğunu etiraf edirdik.

Zaman keçdikcə Yaşar müəllimin yeri daha çox görünür. Bənzərsiz söz, bənzərsiz iş üslubu, bənzərsiz ünsiyyət fəlsəfəsi. Bunlar üçün çox darıxmışıq. Onun hər əsərini yenidən oxuduqca görmədiyimiz, duymadığımız elmi və əxlaqi kamillik çalarlarının şahidi oluruq. Nəşrə hazırladığım beş cildlik əsərlər toplusu, məqalələr və xatirələr məcmuəsi doğma İnstitutun ona dərin ehtiram əlamətidir. Yaşar Qarayevin xatirəsinin layiqincə əbədiləşdirilməsi isə daha səlahiyyətli qurumların işidir.

Yaşar müəllimin son kitabına müqəddimə yazmış, onu elmimizin möcüzəsi adlandırmış akademik Kamal Talıbzadənin aşağıdakı çox duyğulu sözləri hər bir namuslu Azərbaycan ziyalısının da hisslərini ifadə edir: "Ağlının, zəkasının bütün ruhunu yazdığı əsərlərinə köçürən Yaşar Qarayevin əbədiyyətə hicrəti, bütün xalqımız, xüsusən onu şəxsən tanıyanlar, şəxsiyyəti ilə təmasda olanlar üçün nə qədər ağır olsa da, əbədi ölümsüzlük səlahiyyətinin təsdiqidir. Böyük Ağlın gücü və əbədi ruhun məsumluğunu özündə birləşdirən Yaşarın əsərləri bundan sonra da neçə-neçə alimlər nəslinə yol göstərəcəkdir".

**Şirindil ALIŞANLI,**
**filologiya elmləri doktoru, professor.**